# BƏKİR ÇOBANZADƏNİN BƏDİİ NƏSRİ VƏ PUBLİSİSTİKASI



*Mahmud ALLAHMANLI, filologiya elmləri doktoru, professor*

*(Əvvəli ötən sayımızda)*

Məsələn, "İki dərviş" hekayəsində xalq təsəvvüründə, dini inanclarında nəzərə çarpan xüsusiyyətlər öz qaynaqları etibarı ilə milli dəyərlərə, əski təsəvvürlərə bağlanır. "Həzrəti Ömərin ədaləti bütün kafirlərin gözünü yaşardanda, islamın yaşıl bayraqları Hindin, Çinin, Rum qeysərlərinin qübbəli tavanlarında dalğalandığı zamanlarda bu gün yerlərin, qurdların yediyi sarı daşlı türbələrin altındakı igidlər "əbədiyyət, əbədiyyət" deyə türkülərini söylərkən bizim yayla dağlarında aslanlar, bəbirlər dolaşarkən xilafət şəhəri Şami-Şərifdə ağ saqqallı, ağ çalmalı Şeyx İsmayıl əl-Qəndi adlı bir qocanın ekiz oğlu doğuldu. Uşaqlardan birinin adını Yusif, o birinin adını İshaq qoydular. Ataları uzun illər gündə beş dəfə beş rükətdə uşaqlarının sağ-salamat olması, dini-islamın dünyanın sonuna qədər mənsur və müzəffər olması üçün dua etdikdən sonra Kiramən Katibin mələkləri əməl dəftərini doldurub Münkir və Nəkir mələklərinə təhvil verdilər" (7, 14-164). Göründüyü kimi, klassik ədəbiyyatın, eləcə də bütünlükdə yazılı mühitin qaynağında dayanan əfsanə, rəvayət və dini hadisələr burada da bir tərəf olaraq B.Çobanzadə hekayəsinin mahiyyətində dayanır. Görkəmli ədib buradan çıxış etməklə bir neçə istiqamətdə insani, dini-mənəvi və əxlaqi dəyərləri qabarıq şəkildə təqdim etməklə diqqəti əski yaddaşda olanlara yönəldir.

Yaradıcı istedadı və onun əhatəlidiyi təsəvvür sənətkarın bədii-estetik, tarixi-ideoloji yanaşmalarından tipik xarakterlər yaratma bacarığına qədər geniş bir təfsilatla müəyyənləşir. Çünki tipik şəraitdə tipik xarakterlər yarada bilmək bacarığı özlüyündə istedada, həyat reallığını dərkə və yaradıcı laboratoriyasında təqdim manerasına bağlanmaqla faktlaşır. Aparılan ümumiləşdirmələr, sənətkarın təqdim və ifadə üsulları, mövzu seçimi və obrazlaşdırma bacarığı bədii nümunənin uğurluluğu üçün əsas olur. Xalqın zəngin mədəniyyət abidələri, dünya şöhrətli yazılı ədəbiyyat örnəkləri məhs bu imkanların reallaşması və həm də uğurlu reallaşması sayəsində əbədiyaşarlıq qazanmışdır. B.Çobanzadə hekayələri də özlüyündə yaradıcı şəxsiyyətinin görünüş kodu olmaqla, onun həm də hansı duyğular və düşüncələr içərisində fəaliyyət mexanizmini ortaya qoyur. Daha doğrusu, burada müəllifin yaradıcı şəxsiyyəti, həyat hadisələrinə münasibət fəlsəfəsi aydınlaşır. Görkəmli tənqidçi V.Belinski yazır ki, "şair haqqında mühakimə yürüdün, lakin heç bir nəzəriyyəyə arxalanmayın - onda sizin tənqidiniz öz şəxsi zövqünüzün ifadəsi kimi səslənəcəkdir, bu isə sizin özünüz üçün vacib və dəyərli görünə bilər, başqaları üçün qanun deyil; şair haqqında hər hansı nəzəriyyəyə arxalanıb mühakimə yürüdün - o halda siz, ola bilər ki, özlüyündə çox yaxşı olan öz nəzəriyyənizi açıb göstərirsiniz, lakin təhlil etdiyiniz şairin həqiqi simasını öz təbii işığında göstərə bilməyəcəksiniz. Bəs bizim zəmanənin tənqidi hansı yolu seçməlidir?

Şairin yaradıcı fəaliyyətinin mənbəyi onun şəxsiyyətində ifadə olunan poetik ruhundadır, buna görə də onun əsərlərinin ruhunun və xarakterinin izahını birinci növbədə şairin şəxsiyyətində axtarmaq lazımdır" (5, 137). B.Çobanzadənin bütünlükdə fəaliyyəti, əlimizdə olan (və olmayan) əsərləri, xalqın yaddaşında formalaşmış obrazı (hansı ki, bu təsəvvürlərdən təxminən yüz illik bir zaman bizi ayırır), xalq yaddaşında, eləcə də elmi cameədə yaşananlar, ayrı-ayrı əsərlərində görünən obrazı, araşdırmalarındakı möhtəşəmlik və s. və s. (buraya ölümü və ölümə aparan yolu da əlavə etdikdə) ciddi mənzərə yaranır. 37-ci il repressiyasına qədər gördükləri ilə B.Çobanzadə hansı təsəvvürü formalaşdırmışdırsa, bu gün eyni düşüncə etnik yaddaşda qorunub saxlanır və nümunə olaraq yaddaş faktına çevrilməklə yaşarlıq qazanır. Onu da əlavə edək ki, repressiyadan sonra xalq onu bir vətən övladı, böyük şair, böyük türkoloq, böyük şəxsiyyət olaraq bağrının başında əzizlədi, adını nümayişkaranə şəkildə dilə gətirə bilmədisə də, ancaq yaddaşında, düşüncəsində yaşatdı. Siyasi mühitin yumşalmalarından, imperiyanın çöküşündən sonra isə görkəmli ədib böyük xalq sevgisi ilə örnək olaraq nümunəyə çevrildi. Gediləcək yolun və yaşanacaq gələcəyin formulasını müəyyənləşdirdi.

Yaradıcı şəxsiyyəti ətrafında yürüdülən mühakimələrdə özünü göstərən istiqamət heç bir nəzəriyyəyə əsaslanmadan və ya nəzəriyyəyə əsaslanmaq müstəvisində münasibətlə bir-birinə dabandabana zidd və digər müstəvidə yaxın təsəvvürü sərgiləməklə bir başqa mövqenin (bəlkə də daha əsas olanın) çatdırılmasını zəruri olaraq ortaya qoyur. Təhlildə vurğulanan və əsas meyar kimi diqqət önünə çatdırılan şəxsiyyətin yaradıcı fəaliyyətinin mənbəyi məsələsidir. B.Çobanzadə məhz bu kontekstdə ciddi və həm də kifayət qədər əhatəli müəyyənliklə özünü göstərə bilir. Onun poeziyasının, nəsrinin, publisistikasının, eləcə də ədəbi-nəzəri görüşlərinin ümumi sistemi yaradıcı şəxsiyyətinə, bədii-estetik, ictimai-siyasi, tarixi-fəlsəfi axarın formalaşdırdığı təsəvvürə bağlanır. "İki dərviş", "Uğurlu yollar", "Xırmanda bir şair", "Qaradinməz Cəlil", "On dörd yaşında" və s. hekayələri öz məzmun və mündəricəsi, mahiyyətində daşıdıqları ilə bütünlükdə yaradıcı fəaliyyətinin mənbəyini ortaya qoymaq ideyasına köklənir. "İki dərviş" hekayəsindəki epizodik məqamlar, məsələn, övladsızlıq məsələsi və "Şami-Şərifdə ağ saqqallı, ağ çalmalı Şeyx İsmayıl əl-Qəndi adlı bir qocanın ekiz oğlu oldu" mətninin verdiyi informasiya, eləcə də bütün qəzalarını ödədikdən sonra (oğullarını oxutdurduqdan, borclarını ödədikdən sonra) Əzrayılın "bu fani dünyada qismətin bitdi" ifadəsi insanhəyat anlamında "dünya bir pəncərədir" fəlsəfəsini faktlaşdırır. Böyük şair S.Vurğunun dediyi kimi "biz gəldi gedərik, sən yaşa dünya" reallığını bir həqiqət olaraq ortaya qoyur. Məsələnin digər tərəfində isə soy-kökdən gələn dəyərlərin qorunuşu və davamı daha çox diqqət önünə gətirilir və qayə də burada açıqlanır.

Hekayənin mahiyyətində dayanan məsələ Yusiflə İshaqın müəyyənləşdirdiyi həyat yoludur və bunlar hər ikisi də öz dünyagörüşü, düşüncə baxımından fərqli-fərqli yolu tutsalar da, (əslində mahiyyətcə eynidir) ancaq əxlaq, mənəviyyat, mənəvi zənginlik baxımından biri digərini tamamlamaq kontekstini müəyyənləşdirir. "Ataları öldükdən sonra Yusiflə İshaq şeyxdən qalan sərvəti bölüşdülər. İshaq pambıq kimi ağ olan iki keçini aldı. Təbiəti uşaqlıqdan bəri sufiliyə meyilli olduğundan Havran dağlarının birinə gəlib bir mağaraya girdi, inzivaya çəkildi. Əshabi-Kəhfin mağaralarının da haradasa buralarda olduğu söylənilirdi.

Yusif isə atasından qalan əttar dükanında alverə başladı. Arşın və tərəzi ilə şeytanın bu iki qara icadı ilə oynamağa başladı. Hər gün, hər saat başı üstündə "Qurani-Kərimin "Veylün lil-müttəffifin" buyuran ayəsi atəşdən yazılıb sallanırdı. Çox zaman iblis onun arşınını uzadır, tərəzisinin daşlarını dəyişdirir, mallarının qiymətlərini artırırdı. Ancaq Yusif hər dəfə şeytanın hiyləsini sezir, hamısını düzəldirdi" (7, 165). Burada mənəvi dəyər, atalar-oğullar anlamında kristal insanlıq örnəyi bədii boyalarla özünün ifadəsini tapır. Əxlaq, tərbiyə, əsil-nəcabət anlamında özünün ifadəsini tapan məsələlər bir bütöv olaraq hekayə boyu açılma məqsədində dayanır. Eyni zamanda mədəni axarda özünə yer almış mənəvi zənginlik timsalında İshaqın sufiyanə həyata üstünlük verməsi, inzivaya çəkilməsi və s. məsələlər yüksək sənət meyarları ilə bədii mətnə gətirilir.

Hekayənin ortaya qoyduğu məzmunda digər xətt Yusifin yaşam tərzi ilə bağlı olanlardı. Belə ki, Yusif də öz həyat tərzi, düşüncəsi ilə ailədən, gendən gələn dəyərlərə köklənməklə bir yaşama üstünlük verir. Şeytanın onun halal yaşayışını pozmaq, maddi zənginliyə yönləndirmək cəhtləri baş tutmur və belə olan tərzdə əhali ilə onun arasında münasibətləri pozmaq üçün iftira yolunu seçməsi (şeytanın) tipik səciyyəliyi ilə uğurlu görünür. B.Çobanzadə tipoloji yanaşmalarda iki qardaş, iki dərviş timsalında olduqca ciddi və həm də dəyər anlamında mükəmməl bir yaddaş, təsəvvür örnəyini hekayə mövzusuna çevirir. Burada diqqətçəkici məsələlərdən biri iki qardaşın yeddi ildən sonra görüşməsi və bu görüşün doğurduğu təsəvvürdür. "Bir də Yusifə öz kəramətini göstərmək istəyərək al yaylığa ağ keçi südünü doldurub götürməsi" məsələsidir. Ədib əlavə edir ki, "amma o zamanlar övliya yatağı olan Şamda buna heç kim təəccüblənməzdi" söyləməsidir. Yusif də təəccüblənmir və yaylığı qardaşından alıb "Allah razı olsun" deyərək bir yerdən asır. Dükandakı qadınlar, seyidələr, şərifələr, xanımlar və onların gözəlliyi İshaqı çaşdırır. Bu zaman yaylıqdakı süd axmağa başlayır. Qadınlardan birisi südün axdığını deyəndə Yusif qardaşına "ey dərviş həzrətləri, özünə diqqət et" deməsi mahiyyəti aydınlaşdırır və həm də Yusifin dərəcəsini ortaya qoyur. Belə ki, xeyli zamanlar Yusifi aldada bilməyən şeytanın İshaqı aldada bildiyi aydınlaşır. Yusifin "sənə birdən od lazım olar deyə bir az qor gətirdim" deməsi dərəcənin (və məqamın) böyüklüyünü açıqlayır. "Sonra kisəsindən bir yaylıq çıxarıb açdı, yaylığın içərisində qızılgül kimi bir qor var idi.

İshaq o zaman Yusifin dərəcəsini anladı. Ayaqlarına düşdü. Vaxt itirmədən Yusifin dükanında şəyird oldu" (7, 167). Göründüyü kimi, tipoloji yanaşmalarda bu hekayənin ortaya qoyduğu mənzərə kifayət qədər mükəmməl təsəvvürlə, Şərq milli-mənəvi dəyərlərinə bağlanan etiketlərlə səciyyələnir. Həzrəti Ömərin Çin və Hindistanda belə göz qamaşdıra biləcək ədalətlilik prinsipi, eləcə də Şamda ağ saqqallı Şeyx İsmayıl əl-Qəndinin haqqında olan bilgilər, oğlanları Yusif və İsaqın bir dərviş olaraq formalaşdırdığı təsəvvür və s. bir bütöv olaraq ariflik məqamına bağlanır. Məlum olduğu kimi, "dərviş təmiz qəlbə malik maddi meyil və həvəslərdən uzaq, nəfsani ehtirasların zülmətindən xilas olmuş, mənəvi-əxlaqi cəhətdən pak Haqq aşiqləri, saf etiqadlı müridlərdir. Daha çox səyyari həyat keçirən miskin yaşayış tərzinə malik bu həqiqət aşiqləri zahiri ibadətləri yox, batini etiqadı üstün tuturlar. Qəlbini ilhamın nuru ilə işıqlandıran və fənaya uğrayan həyat və axirətdən keçən dərvişlər çox zaman gəzərgi şəkildə təriqət ideyalarının təbliği ilə məşğul olurlar... "Dərviş" istilahındakı "yoxsulluq" anlamı maddi sərvət və nemətlərdən imtina etmək mənasındadır" (4, 109). B.Çobanzadənin "İki dərviş" hekayəsi də məhz mənəvi zənginlik anlamında Yusif və İshaqın şəxsində eyni təsəvvürü müəyyənləşdirir. Eyni zamanda hekayə bütün mahiyyəti ilə tərbiyəvi funksiyada ilahi nurla işıqlanmanın məzmunun şərtləndirir. Nəfsani ehtiraslar insanları dünyagirliyin girdabında bəla üstünə bəlaların gəlməsini sıralayır və hekayədə də bu İshaqın (dərvişin) hərəkətləri müqabilində Yusifin (digər dərvişin) "ey dərviş, özünə gəl" deməsi ilə özünə qayıdışı faktlaşdırır. Məzmunu və ortaya qoyduğu düşüncə ilə tipik bir nümunə olan bu hekayə həm də sənətkar istedadının, mənəvi zənginliyinin göstəricisi olaraq da diqqəti cəlb edir.

B.Çobanzadənin süjet qurma bacarığı, hadisələrin təhkiyə axarında ortaya qoymağa çalışdığı ideya, həm də yaradıcı təfəkkürünün zənginlik qatlarını bir önəmli tərəf olaraq diqqət önünə gətirir. Məsələn, "Qaradinməz Cəlil" hekayəsində müəllifin yaratdığı obrazlaşma həm də metaforik məzmunu ilə mahiyyətində ciddi məzmunu faktlaşdırır. Ümumiyyətlə, "hekayə dramatik formadır, quruluşu sadə, nağıla bənzərdir. Bu janrda cəmiyyət, ictimai-siyasi münasibət və fəaliyyət haqqında canlı və təsirli məlumat verilir, təsəvvür oyadılır... Müəyyən bir əhvalat hekayədə təfərrüatı ilə təsvir olunur. Süjeti səciyyəvi bir hadisə, təsirli bir əhvalat hərəkətə gətirir. Burada surətlərin sayı az olur. Obrazların həyatından bir hadisə, bir əhvalat götürülür, bu isə onların bütün həyatı, ictimai-siyasi fəaliyyəti haqqında təsəvvür oyadır; surətlər fərdiləşir, dünyagörüşləri açılır, xarakter səviyyəsinə qaldırılır" (9, 294). B.Çobanzadənin hekayələri bu baxımdan bütövlüyü, obrazların xarakter səviyyəsinə qaldırılma imkanları, fərdiləşdirmə səciyyəsi ilə mükəmməl təsir bağışlayır. "İki dərviş" bunun klassik nümunəsi olaraq nəzər-diqqəti cəlb edir. "Qaradinməz Cəlil"də də məhz obrazların xarakter səviyyəsinə qaldırılması, fərdiləşdirmənin yüksək sənət imkanlarına bağlanması baxımından diqqətçəkicidir. Başlanğıc epizod bunun göstəricisi olaraq uğurlu bir yanaşma ilə səciyyələnir. "Cəlil ağa orta boylu, enlikürək, qara bığlı, qara gözlü, gur saçlı, ağ bənizli, incə burunlu bir adam idi.

*(Davamı var)*